# Paşayev Abdulla Sultan oğlu...

**Hər anımın şahidi, ömür yolumun yol yoldaşı, sevinəndə qəlbi sevinənim, kədərlənəndə sıxıntımı ürəyində hiss edənim, dayağım, məsləhət verənim qardaşım. Bizi ifadə etməyə qardaş kəlməsi də aciz qalar. Biz iki bədəndə bir ruh idik. Bir doğulduq, bir böyüdük, bir yürüdük. 24 iyul ailəmizdə hər zaman toy-bayram olardı.**



Bu sevincli günün təməli 1998-ci ildə atılmışdı. Atamın, anamın əkizləri idik biz. Böyük bacımız bizi ən əziz insanları bilirdi. Hər addımımızı bir atırdıq. Elə 2005-ci ildə ilk məktəbə gedəndə də 42 N-li tam orta məktəbdə eyni sinifdə, eyni partada oturduq. Heç kim bizi ayırmırdı. Xarakterimiz bir idi. Bir-birimizi tamamlayırdıq. Ancaq Abdulla daha şən idi. Hər kəslə birinci o dil tapırdı. O qədər mehriban, canayanan idi ki, hər kəsin sevgisini qazanmışdı. Həm də ailəmizin məsləhət verəni idi. Biz 11 yaşında olanda atamız dünyasın dəyişdi. Həmin gündən ən böyük məsuliyyəti Abdulla yığdı çiyinlərinə. Biz hər ikimiz idmanın boks növü ilə məşğul olurduq. Mənim bəzi məğlubiyyətim olsa da, o həmişə birincilik qazanardı. Hər zaman qardaşımla qürur duyurdum. 2015-ci ildə məktəbi bitirdik. Universitet yolları bizi ayırdı. Sonrakı il Abdulla kollecə daxil oldu. 2019-cu il 24 iyul ad günümüz günü hərbi xidmətə yola düşdük. Xocavənd rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başladıq. 2020-ci il iyul ayında baş verən döyüşlərdə qardaşım düşmənlə üz-üzə vuruşan əsgərlərdən biri oldu. 3 gün ondan xəbər ala bilmədim. Döyüş bitdikdən sonra gəldi. O 3 gün mənə 3 il kimi gəlmişdi. Mən qardaşımdan ayrı qaldığım hər an çox əzab çəkirdim. O döyüşlər bitdikdən sonra mənim xidmətim başa çatdığı üçün mən evə buraxıldım. Elə bu xəbəri də mənə Abdulla dedi. Mən qardaşımdan ayrıla bilmirdim. Çox kədərlənmişdim. Ancaq o mənə "Sabah heç olmasa sən evimizdə ol. Anamın bacımın gözü yolda qalmasın" dedi. Çünki sabah, 24 iyul bizim ad günümüz idi. Mən 23 iyul qardaşımla vidalaşıb evə gəldim. Ancaq mən onsuzluğa dözə bilmirdim. Gəldiyim gün dörd dəfə zəng edib danışdım. İlk dəfə qardaşımdan ayrı ad günüm oldu. Həmin gün Allahdan məni heç zaman qardaşımla sınamamağını dilədim. Ancaq...

26 sentyabrda anama zəng edib danışdı. O şəhid olacağını hiss etmişdi. Anamın narahatlığını hiss edib anamı sakitləşdirdi. Anama "şəhidlik uca zirvədir, hər kəsə nəsib olmur" deyib anamla sağollaşdı. Sonra mənimlə danışdı. Mənə "əgər müharibəyə çağırsalar get, demə ki, qardaşım müharibədədir" dedi.

27 sentyabrda döyüşlərin başladığını eşitdim. Dəfələrlə zəng etdim, ancaq zənglərim cavabsız qaldı. Sonunda telefonu bir əsgər açıb "başın sağ olsun, Abdulla şəhid olub" dedi. O an qardaşımın gülər üzü gözlərim önünə gəldi. İtirəcəyimdən qorxduğum qardaşımı itirdiyimə inana bilmədim.

Nur simalı qardaşım şəhadətə də gülə-gülə gedib. Yoldaşlarının dediyinə görə, Abdulla döyüşə təkidlə qatılıb. Komandiri ona "sən qal" deyib. Ancaq o, getməkdə israrlı olduğunu deyib. Maşınları hərəkətdə olarkən minamyotla vurulub. Maşının yandığını görən komandir uzanıqlı halda çöhrəsi gülən Abdullanın zarafat etdiyini düşünüb. Yaxınlaşıb qolundan tutduğunda onun şəhid olduğunu görüb. Həmin vaxt təkcə Abdulla şəhid olub. Çətinliklə onun nəşini ərazidən çıxarıbar. Sentyabrın 28-i səhər saat 5-də qardaşımı gətirdilər. Mən şən, gülərüz qardaşımın "Rəhim" deyib boynuma sarılmağını xəyal etdim. Ancaq bu bir xəyal idi. Gerçək olan isə Abdullanın daha həyatda olmaması, arzuladığı şəhidlik zirvəsinə ucalması idi. Abdulla Gəncə şəhərinin Vətən müharibəsində vətənə qurban etdiyi ilk şəhidi idi. Onun şəhid xəbəri bir anda Gəncə şəhərinə səda saldı. Hər kəs şəhidinə vətəndaş borcunu yerinə yetirmək üçün Şəhidlər xiyabanına toplaşdı. Dəfn mərasiminə Gəncə şəhər İcra Hakimiyyəti nümayəndələri, Türkiyə Konsuluğu, hərbiçilər və xalq qatıldı.

Paşayev Abdulla Sultan oğlu şəhadətindən sonra Prezident İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub.

Ayrı qaldığım hər ötən an bir ömür qədər uzun gələn qardaşımın əbədi gedişi məni həyatın ən böyük acısı ilə baş-başa buraxıb. Mənim qardaşsızlıq dərdim qardaşımın qısa ömrünə bənzəmir. Min ömür yaşasam, yenə də bu acım ürəyimdən silinməz...

**ŞƏHİD ABDULLA**

Bir an da səndən ayrı,
Qala bilməzdim qardaş.
Əbədi həsrətinlə,
Kirpiyimə qondu yaş.

Sən mənim nəfəsimdi,
İndi nəfəssizəm mən.
Axı əkiz olanlar,
Əkizini bilir tən.

Mən ata qoxusun da,
Səndən alırdım hər vaxt.
Ata dərdli qəlbimdə,
Qardaş dərdi qurdu taxt.

Abdulla, sənsiz gəlir,
Ömrə qış da, bahar da.
Gözüm dikilib qalıb,
Sən getdiyin yollarda.

Bacım qardaş dərdini,
Sığdırıb ürəyinə,
Mən sən ola bilmirəm,
Yetişəm köməyinə.

Anam elə qocalıb,
Oğul həsrəti ilə.
Kədərlə baxan gözü,
Yaş tökür gilə-gilə.

Şəhid dərdi ağırmış,
Ürək çəkir iztirab.
Bilmirəm ki, bu dərdə,
Nə qədər edəcəm tab.

*Manya SƏXAVƏTQIZI*

Bakı xəbər.- 2021.- 8 may.- S.14.